

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 42 (23.684)

*3 mart 2021-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin 50 illik yubileyinin keçirilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin

## Sərəncamı

2021-ci ildə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin yaradılmasının 50 illiyi tamam olur.

Naxçıvanda rəssamlıq sənəti böyük inkişaf yolu keçmişdir. Tarixi Gəmiqaya təsvirlərindən başlayan Naxçıvan rəssamlıq sənəti XII əsrdən etibarən memarlıq məktəbinin təsiri ilə inkişaf etmişdir. XX əsrin əvvəllərində Azərbaycan realist rəssamlığının banisi Bəhruz Kəngərli Naxçıvan rəssamlıq məktəbinə yeni ictimai məzmun qazandırmış, onu forma və təsvir vasitələri ilə zənginləşdirmişdir.

Ümummilli liderimiz Heydər Əliyevin himayəsi ilə 1971-ci ildə Azərbaycan Rəssamlar İttifaqının Naxçıvan Təşkilatı, 2000-ci ildə isə həmin təşkilatın bazasında Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi yaradılmışdır. Müstəqillik illərində muxtar respublikada rəssamlıq sənətinin inkişafı ilə bağlı ardıcıl tədbirlər görülmüş, Rəssamlar Birliyi yeni bina və emalatxana ilə təmin edilmiş, birlik üzvlərinin yaradıcılıq imkanları genişləndirilmiş, Naxçıvan şəhərində Bəhruz Kəngərli Muzeyi və Rəssamlar Parkı yaradılmış, ali təhsil müəssisələrində müvafiq ixtisaslar açılmışdır.

Bu gün tariximizin və milli dəyərlərimizin təbliği, günümüzün real mənzərəsinin yaradılması və vətənpərvərlik tərbiyəsi Naxçıvan rəssamlarının yaradıcılığında əsas yer tutur.

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq, Rəssamlar Birliyinin muxtar respublikanın ictimai-mədəni həyatındakı rolunu nəzərə alaraq **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin 50 illik yubileyi qeyd edilsin.

2. "Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin 50 illik yubileyinin keçirilməsi ilə əlaqədar Tədbirlər Planı" təsdiq edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 2 mart 2021-ci il*

***Muxtar respublikada sosial-iqtisadi inkişafın təmin edilməsi məqsədilə qəbul edilmiş Dövlət proqramları mühüm əhəmiyyət kəsb edir. Həmin proqramlarda nəzərdə tutulmuş tədbirlərin uğurla həyata keçirilməsi nəticəsində muxtar respublikada iqtisadiyyatın tarazlı və davamlı inkişafına nail olunmuşdur. Həyata keçirilən tədbirlər digər sahələr kimi, kənd təsərrüfatında da mühüm nəticələrin əldə olunmasına imkan vermişdir.***

## Dövlət proqramları uğurla icra olunur

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 8 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"na uyğun olaraq Daşınmaz Əmlak və Torpaq





Məsələləri üzrə Dövlət Xidməti tərəfindən bələdiyyələr üzrə torpaqların qida maddələri ilə təmin olunma kartoqramlarının hazırlanması və yenilənməsi diqqətdə saxlanılmışdır. Babək rayonu üzrə 18, Culfa rayonu üzrə 14, Şərur rayonu üzrə 20, Ordubad rayonu üzrə 6, Şahbuz rayonu üzrə 5, Kəngərli rayonu üzrə 7 bələdiyyənin, həmçinin dövlət ehtiyat fondunda əkinəyararlı torpaq sahələrinin qida maddələri ilə təminolunma kartoqramları yenilənmişdir.

Babək rayonu üzrə 6, Culfa rayonu üzrə 5, Şərur rayonu üzrə 26, Ordubad rayonu üzrə 7, Şahbuz rayonu üzrə 7, Kəngərli rayonu üzrə 9 bələdiyyəyə dair işçi planlar hazırlanaraq torpaq analizlərinin aparılması üçün təhvil verilmişdir.

Dövlət proqramlarında nəzərdə tutulan tədbirlərin uğurlu icrası nəticəsində muxtar respublikada meyvə-tərəvəz əkinlərinin sahəsi genişlənmiş, müvafiq sahələr üzrə məhsuldarlıq yüksəlmiş, meyvəçiliyin və tərəvəzçiliyin davamlı inkişafı təmin olunmuşdur. 2020-ci ildə həyətyanı torpaq sahələrində salınmış meyvə bağları ilə birlikdə çoxillik əkmələrin sahəsi 6476 hektara çatmışdır ki, bunun da 6087 hektarı meyvə bağları, 389 hektarı üzümlüklər olmuşdur. 2015-ci illə müqayisədə meyvə əkinlərinin sahəsi 522 hektar, üzümlüklərin sahəsi isə 286 hektar artmışdır.

Muxtar respublikanın şəhər və rayonlarında torpaq mülkiyyətçiləri, icarəçiləri və istifadəçiləri arasında əkin atlaslarına uyğun əkin aparılması, torpaqların münbitliyinin qorunması və artırılması, müasir əkin üsullarının və texnologiyalarının tətbiqi barədə maarifləndirmə işləri aparılmışdır. Torpaqların qida maddələri ilə təmin olunmasına dair hazırlanmış yeni kartoqramlar müvafiq bələdiyyələrə təqdim olunmuşdur.

"Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na müvafiq olaraq nəqliyyat infrastrukturu obyektlərinin adlarını və daşınmaz əmlak obyektlərinin nömrələrini əks etdirən lövhələrin hazırlanması davam etdirilmiş, 39 nəqliyyat infrastrukturu obyektində 4000-ə yaxın daşınmaz əmlak obyektinə naturada baxış keçirilərək dəqiqləşmə işləri aparılmışdır. 20 nəqliyyat infrastrukturu obyektində nəzərdə tutulan 2000-dən artıq ünvan lövhələri və giriş nömrə nişanları hazırlanaraq quraşdırılmasına başlanmışdır.

Torpaqların elektron kadastr uçotu informasiya sistemi sınaq rejimində istismar edilmiş və mövcud funksionallıqların təkmilləşdirilməsi davam etdirilmişdir. Sistemə torpaqdan istifadəyə dövlət nəzarətinin həyata keçirilməsi üçün "Nəzarət və monitorinq" modulu, dövlət və bələdiyyə mülkiyyətində olan torpaq sahələri üzərində kadastr əməliyyatlarının aparılması üçün yeni funksionallıqlar əlavə olunmuşdur.

Şərur, Sədərək, Kəngərli və Şahbuz rayonlarının bələdiyyələri üzrə reyestr məlumatları yeni xəritələrin üzərinə köçürülmüş, aşkar olunan uyğunsuzluqlar aradan qaldırılmışdır. Şərur, Sədərək, Kəngərli və Şahbuz rayonlarının bütün bələdiyyələri üzrə həyətyanı və pay torpaq sahələrinin yeni elektron sistemə miqrasiyası başa çatdırılmış, dövlət və bələdiyyə mülkiyyətində olan torpaq sahələri sistemə yerləşdirilməsi üçün dəqiqləşdirilmişdir.

Ərazi vahidləri üzrə əkin dövriyyəsindən kənarda qalan əkinəyararlı torpaq sahələrinin müəyyənləşdirilməsi, xəritələşdirilməsi və yenidən əkin dövriyyəsinə qatılması ilə bağlı tədbirlərin həyata keçirilməsi üçün muxtar respublika ərazisində monitorinqlər aparılmış, müxtəlif amillərin təsiri ilə deqradasiyaya məruz qalmış 8583 hektar torpaq sahəsi müəyyənləşdirilmişdir. Ərazilərdən götürülmüş torpaq nümunələrinin laborator analizləri aparılmış, analiz nəticələri, torpaqların mülkiyyət növləri və uqodiyalar üzrə hesabat cədvəlləri tərtib edilmiş, xəritələr hazırlanmışdır.

Şahbuz rayonunun Külüs, Mahmudoba və Nursu bələdiyyələri ərazisində yeni suvarma xəttinin çəkilməsi nəzərdə tutulmuş 340 hektar, Şahbuz rayonunun Sələsüz, Mərəlik və Türkeş bələdiyyələrinin ərazisində qapalı suvarma şəbəkəsi qurulmuş 270 hektar, Ordubad və Culfa rayonları üzrə Gilançaydan qidalanması nəzərdə tutulan suvarma xəttinin əhatə etdiyi 1190 hektar, Kəngərli rayon dövlət ehtiyat fondu və Böyükdüz bələdiyyəsinin ərazisində qapalı suvarma şəbəkəsinin tikintisi aparılmış 810 hektar, Araz Su Anbarı üzərində qurulacaq yeni nasos stansiyasından qidalanması nəzərdə tutulan suvarma şəbəkəsinin əhatə etdiyi 2091 hektar ərazidə topoqrafik planaalma işləri aparılmışdır.

Muxtar respublikada həyata keçirilən məqsədli Dövlət proqramları aqrar sektorun inkişafına stimul yaratmaqla dinamik artımını təmin etmişdir.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin mətbuat xidməti***

## Tarix-Diyarşünaslıq Muzeyi müasir binada fəaliyyət göstərəcək



Muxtar respublikamızın hər bir rayonunda kompleks tikinti-quruculuq işləri uğurla davam etdirilir. Tariximizi özündə yaşadan, qoruyan və gələcək nəsillərə çatdıran muzeylərimiz də bu qayğıdan kənarda qalmır. Belə ki, hazırda Şahbuz rayonunda Tarix-Diyarşünaslıq Muzeyi üçün yeni binanın tikintisi davam etdirilir. 2 mərtəbədən ibarət olacaq binada geniş sərgi salonu ilə yanaşı, fond, bələdçilər, direktor, qazanxana və elektrik, texniki işçilər, bərpaçı rəssam otaqları və foye nəzərdə tutulub.

Artıq son tamamlanma işləri görülən, ümumilikdə, 591 kvadratmetr sahəni əhatə edəcək yeni muzey binasında ziyarətçilərə tariximizin təbliği üçün geniş şərait yaradılacaq.

## Naxçıvanbankın yeni filialı üçün binanın tikintisi başa çatmaq üzrədir



Əhalinin əlverişli bank xidmətlərindən daha səmərəli yararlanması üçün 2008-ci ildən fəaliyyət göstərən "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyətinin paytaxt Bakı və Naxçıvan şəhərlərində, o cümlədən Şərur, Culfa, Ordubad, Kəngərli rayonlarında filialları istifadəyə verilib. Şahbuz rayon mərkəzində bankın yeni filialı üçün binanın tikintisində hazırda son tamamlanma işləri aparılır. Ümumilikdə, 465 kvadratmetr sahədə yerləşəcək bina iki mərtəbədən ibarət olacaq. Binanın birinci mərtəbəsində əməliyyat, xəzinə, server, qiymətlilərin saxlanılması və gözətçi otaqları, müştəri zalı, qazanxana yerləşəcək. İkinci mərtəbə isə direktor və əlavə iş otaqları üçün nəzərdə tutulub.

Yeni filial əhalinin maliyyə resurslarına olan tələbatlarının yüksək səviyyədə ödənilməsinə şərait yaradacaq, burada biznes, kənd təsərrüfatı, ailə təsərrüfatı, istehlak və ipoteka kreditlərinin verilməsi, eyni zamanda kassa əməliyyatları və pul köçürmələri kimi bütün maliyyə əməliyyatları həyata keçiriləcək.

**Telli MƏMMƏDOVA**

## Peşəyönümlü məşğələlərin təşkili diqqət mərkəzindədir



Muxtar respublikada həyata keçirilən aktiv məşğulluq tədbirləri cəmiyyətin hər bir üzvünün arzusuna, qabiliyyət və bacarığına uyğun olaraq peşə və ixtisas seçiminə əlverişli zəmin yaradır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 28 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası bu baxımdan mühüm əhəmiyyət daşıyır. Proqramın icrası çərçivəsində Əmək və Əhalinin Sosial Müdafiəsi və Təhsil nazirliklərinin birgə təsdiq etdiyi qrafikə uyğun olaraq ümumtəhsil məktəblərinin IX, X və XI siniflərində təhsil alan şagirdlərə əmək bazarının tələbləri əsasında bilik və bacarıqlarına uyğun peşə və ixtisas barədə məlumatlar verilir, onlara gələcək peşə seçimində köməklik göstərilir. Cari tədris ili ərzində artıq 4753 şagird bu peşəyönümlü məşğələlərə cəlb olunub. Bu istiqamətdə keçirilən tədbirlərin davamı olaraq Naxçıvan şəhər 17 nömrəli tam orta məktəbin yuxarı sinif şagirdləri də peşəyönümlü məşğələlərə cəlb edilib, onlara əmək bazarında tələb olunan peşə və ixtisaslar haqqında məsləhət xarakterli məlumatlar verilib. Tədbir zamanı peşəyönümlü məşğələlərin peşə seçimində rolu və əhəmiyyəti, peşə seçimində "səkkiz bucaq situasiyası", məşhur peşələrin xüsusiyyətləri ilə bağlı mövzular ətrafında elektron lövhədə slaydlar və videomateriallar nümayiş etdirilib.

Qeyd edək ki, muxtar respublikada fəaliyyət göstərən ümumtəhsil məktəblərində peşəyönümlü məşğələlərin təşkili tədris ilinin sonuna qədər davam etdiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

Qars müqaviləsi – 100

# Naxçıvanın muxtariyyət statusuna verilən beynəlxalq təminat: Qars müqaviləsi

## Bu, muxtar diyarın toxunulmazlıq hüququnun təsbitidir

(dəyirmi masa)

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun "Qars müqaviləsinin 100 illiyinin keçirilməsi haqqında" 2021-ci il 8 fevral tarixli Sərəncamı və həmin sərəncama əsasən Tədbirlər Planının təsdiq olunması bu taleyüklü möhtəşəm müqavilənin böyük əhəmiyyətini ortaya qoydu. Bununla bağlı qəzetimizin redaksiyasında təşkil etdiyimiz dəyirmi masanın qonaqları Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev, Naxçıvan Dövlət Universitetinin rektoru, tarix üzrə fəlsəfə doktoru, dosent Elbrus İsayev, Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri, tarix üzrə fəlsəfə doktoru, dosent Elman Cəfərli, AMEA Naxçıvan Bölməsinin şöbə müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Elxan Məmmədovdur.*

***– Hər birinizi redaksiyamızda xoş gördük. Məlum olduğu kimi, Qars müqaviləsi mühüm tarixi əhəmiyyətə malik olan beynəlxalq müqavilədir. Bu müqavilə ilə Naxçıvanın statusu təsbit olunub və tərəflər Naxçıvanın muxtar respublika kimi Azərbaycanın tərkibində qalması məsələsində razılığa gəliblər. Bu sahənin tədqiqatçıları kimi oxucularımıza bir qədər məlumat verməyinizi xahiş edirik.***

***İsmayıl Hacıyev:*** – Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin imzaladığı adıçəkilən sərəncamda deyilir: *"... Qars müqaviləsi Naxçıvanın muxtariyyət statusuna təminat verən çox mühüm hüquqi, siyasi və beynəlxalq sənəddir. Qars müqaviləsinin imzalanması və Naxçıvanın muxtariyyət statusunun təsbit olunması dövlətçilik tariximizdə mühüm mərhələdir. Bu tarixin öyrənilməsi və gələcək nəsillərə çatdırılması isə bütün dövrlər üçün aktual və vacibdir".*

Təsdiq olunmuş Tədbirlər planında "Qars müqaviləsi və Naxçıvan" mövzusunda konfransın, Naxçıvan Dövlət Universitetinin Türkiyə Cümhuriyyətinin Qars Qafqaz Universiteti ilə birlikdə Qars şəhərində "Qars müqaviləsinin tarixi əhəmiyyəti" mövzusunda beynəlxalq konfransın keçirilməsi, Naxçıvan Muxtar Respublikasının Qars müqaviləsi ilə təsbit olunmuş ərazisinin xəritəsinin hazırlanması, "Qars müqaviləsi – 100" mövzusunda interaktiv dərsin keçilməsi, "Naxçıvan" jurnalının bir nömrəsinin Qars müqaviləsinin 100 illiyinə həsr edilməsi, "Qars müqaviləsi və Naxçıvan" mövzusunda elmi araşdırmaların davam etdirilməsi, yubiley tədbirinin keçirilməsi, zərf və poçt markalarının buraxılması, elmi əsərlərdən ibarət sərginin təşkil edilməsi və başqa tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Artıq həmin məsələlərin icrasına başlanılmışdır. Güman edirəm ki, sizin təşəbbüsünüzlə "Şərq qapısı" qəzetində keçirilən dəyirmi masa da bu istiqamətdə atılan uğurlu bir addım olacaq.

***– Moskva və Qars müqavilələri imzalanana qədər Azərbaycanın ən böyük tarixi bölgəsi olan Naxçıvanda ictimai-siyasi vəziyyəti xarakterizə etmək yerinə düşər. Bu dövrdə naxçıvanlı ziyalıların fəaliyyəti, məsələn, Behbud ağa Şahtaxtinskinin gördüyü işlərin tariximizin səhifələrində tutduğu yer...***

***Elbrus İsayev:*** – XX əsrin əvvəlləri, xüsusilə 1918-1920-ci illər Azərbaycanın ayrılmaz parçası olan Naxçıvanı hər vasitə ilə ölkənin əsas hissəsindən ayırmağa çalışan erməni daşnakları bolşevik Rusiyasının və Qərb dövlətlərinin dəstəyinə sığınaraq və bir növü onların bölgədəki geosiyasi oyunlarına "sədaqətlə" xidmət edərək burada erməni idarəçiliyi yaratmaq niyyətində idilər.

Bölgənin ağır vəziyyətdən xilas olunması, Naxçıvanın statusu məsələsi dövrün qabaqcıl ziyalılarını və ictimai xadimlərini ciddi düşündürürdü. Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin başçısı Nəsib bəy Yusifbəyli parlamentdəki çıxışında deyirdi ki, hökumət yaranmış şəraitdə Naxçıvana real yardım göstərə bilmədiyindən naxçıvanlılar siyasi müqəddəratlarını qəhrəmanlıqla özləri həll etmişlər.

***– 1918-ci ildə bölgədə Araz-Türk Cümhuriyyətinin fəaliyyəti Naxçıvanın gələcək muxtariyyətinin hüquqi və dövlətçilik əsaslarını möhkəmləndirdi. Onun süqutu nəticəsində isə diyarımız yenidən Azərbaycandan qoparılmaq təhlükəsi ilə üzüzə qaldı.***

***Elbrus İsayev:*** – Haqlısınız. Lakin heç bir halda ana Vətəndən ayrı düşmək istəməyən Naxçıvanın qabaqcıl insanları referendum təklifi irəli sürdülər ki, bu da Naxçıvanın status məsələsində atılan ən uyğun siyasi və diplomatik addım idi. Həmin referendum Azərbaycanın görkəmli dövlət xadimi, mahir diplomat Behbud ağa Şahtaxtinskinin apardığı qətiyyətli fəaliyyət nəticəsində baş tutdu, Naxçıvan əhalisinin yekdil rəyi əsasında bu qədim diyar həmişəlik olaraq Azərbaycanın tərkibində qalmaq hüququ qazandı. Bu referendum özünün hərbi-siyasi əhəmiyyətinə görə Qars müqaviləsinin müddəalarına bərabər əhəmiyyətə malik siyasi hadisə, həmin müqaviləyə gedən yolda ən uğurlu başlanğıc idi. Behbud ağa Şahtaxtinski Rusiya Xalq Komissarları Sovetinin sədri Vladimir İliç Leninə göndərdiyi məktubda Azərbaycanın Naxçıvan, Zəngəzur və Dağlıq Qarabağ ərazilərinin gələcəyindən duyulan narahatlığı çatdırmış, həmin mahalların milli tərkibi və coğrafiyasına dair geniş arayışlar və faydalı təkliflər vermiş, nəticədə, bu təkliflər bəyənilərək RK(b)P MK Siyasi Bürosunda müzakirə olunmuş və Azərbaycan SSR tərkibində Naxçıvan SSR-nin təşkil edilməsi haqqında qərar qəbul edilmişdir. Əlbəttə ki, Behbud ağa Şahtaxtinskinin diplomatik məharətinə bələd olan bəzi qüvvələr onun danışıqlarda iştirakına mane olmağa çalışırdılar. Azərbaycan Kommunist Partiyasının rəhbərliyində olan S.Danielyan, L.Mirzoyan, A.Mikoyan, S.Orconikidze hələ 1921-ci ilin iyununda Şahtaxtinskini danışıqlardan uzaqlaşdırmağa və onu özləri üçün daha əlverişli adamla əvəz etməyə can atırdılar. Nəriman Nərimanovun bu məsələ ilə bağlı prinsipial mövqeyi sayəsində Şahtaxtinski fəaliyyətini davam etdirə bilmişdi. Naxçıvan SSR Xalq Komissarları Soveti Qars konfransında Naxçıvanın mənafeyini müdafiə etmək üçün isə Tağı Səfiyevi ora ezam etmişdi.

***– Yeri gəlmişkən, həmin təlatümlü dövr, bu dövrdə fəal vətəndaş ziyalılığı, ziyalı vətəndaşlığı göstərən şəxsiyyətlərin oynadığı rol mətbuatımızda, publisistikamızda da öz əksini tapıb. Onlar həmin taleyüklü məsələyə öz münasibətlərini bildiriblər...***

***Elxan Məmmədov:*** – Doğrudur. Qars müqaviləsi müstəqillik dövrümüzdən sonrakı mərhələdə ilk dəfə akademik İsmayıl Hacıyevin təşəbbüsü ilə 1998-ci ildə Azərbaycan dilinə tərcümə olunaraq kitab halında nəşr edilib, elmi və geniş oxucu ictimaiyyətinə təqdim olunub. Onunla yanaşı, akademik İsa Həbibbəylinin, tarix üzrə fəlsəfə doktoru, dosent Elman Cəfərlinin, Elbrus İsayevin, Emin Şıxəliyevin, İbrahim Kazımovun, tarix elmləri doktoru Fizuli İbrahimzadənin və başqalarının məqalələrində Qars müqaviləsi ayrı-ayrı yönlərdən tədqiq olunaraq elmi nəşrlərdə işıq üzü görüb.

Bu məqalələrdən bəhs edərkən bir məqamı da unutmamalıyıq. Dəyərli alimlərimiz öz fikirlərini ifadə edərkən naxçıvanlı




diplomat Behbud ağa Şahtaxtinskinin adını, xüsusilə vurğulayırlar. Məhz Behbud ağanın fəaliyyətinin ən əhəmiyyətli məqamlarından biri də Qars müqaviləsinin hazırlanmasındakı iştirakı, oradakı qətiyyəti və nümayəndəlik missiyasıdır. Bu baxımdan Behbud ağa ilə bağlı tədqiqatları biz həm də Qars müqaviləsi ilə bağlı araşdırmalar kimi götürə bilərik. Bu sıraya akademik İsmayıl Hacıyev tərəfindən toplanmış, tərtib edilmiş "Behbud ağa Şahtaxtinski: sənədlər və materiallar" irihəcmli kitabını, 2011-ci ildə keçirilmiş "Behbud ağa Şahtaxtinski və Qars müqaviləsi" konfransının materiallarını, Fizuli İbrahimzadənin "Behbud ağa Şahtaxtinskinin siyasi və diplomatik fəaliyyəti", "Behbud Şahtaxtinski" monoqrafiyalarını və digərlərini qeyd etmək olar.

***– Bəhs etdiyiniz araşdırmaları o dövrün tarixi-publisistik ensiklopediyası və ya xəritəsi də adlandırmaq mümkündür...***

***Elxan Məmmədov:*** – Bəli, həmin elmi araşdırmalar özündə böyük ictimai-siyasi və tarixi həqiqətləri əks etdirir. Ona görə də hər biri bu gün də öz dəyərini saxlayır, gələcəkdə də bu missiyanı yerinə yetirəcək. Bu istiqamətdə daim araşdırmalar aparan akademik İsa Həbibbəylinin "Behbud ağa Şahtaxtinskinin Leninə məktubları", "Açıq məhkəməyə dəvət, yaxud bolşevizmi ittiham", "Behbud ağa Şahtaxtinski: xidmətləri və aqibəti", akademik İsmayıl Hacıyevin "Qars müqaviləsi: Naxçıvanın ərazi taleyi və muxtariyyət məsələsi", "Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir", "Naxçıvanın muxtariyyəti: tarix və müasirlik", "Naxçıvanın muxtariyyət statusunun qorunub saxlanılması mühüm tarixi nailiyyətdir", "Qars müqaviləsi muxtar respublikanın siyasi və tarixi taleyində mühüm rol oynayır", "Qədim türk torpağı Naxçıvanın muxtariyyət salnaməsi", "Qars müqaviləsi və Naxçıvanın statusu məsələsi", "Muxtariyyət tariximizdə siyasi əhəmiyyət kəsb edən Qars müqaviləsi", "Qars müqaviləsi və Naxçıvanın ərazi taleyi" elmi və elmi-kütləvi məqalələri işıq üzü görüb. Fizuli İbrahimzadənin, Emin Şıxəliyevin, Elman Cəfərlinin, Yaşar Rəhimovun, Anar İbrahimovun, jurnalist Kərəm Həsənovun akademik İsmayıl Hacıyevdən aldığı "Erməni iddialarına cavab vermək üçün tariximizi əsaslı öyrənməliyik" müsahibəsi, bundan əlavə, AMEA-nın müxbir üzvləri Fəxrəddin Səfərlinin, Vəli Baxşəliyevin, Zəhmət Şahverdiyevin, tarix elmləri doktoru Fəxrəddin Cəfərovun və başqalarının yazılarında biz Qars müqaviləsinə ortaq ideya əsasında fərqli münasibətlərin şahidi oluruq. Həmin tədqiqat əsərləri mərkəzi və yerli mətbuatda da dərc olunub.

***– 16 mart 1921-ci ildə Rusiya Federasiyası ilə Türkiyə Cümhuriyyəti arasında bağlanmış müqavilədən bir neçə ay sonra 13 oktyabr 1921-ci ildə həmin dövlətlərlə birgə Azərbaycan, Gürcüstan və Ermənistanın iştirakı ilə Qars müqaviləsinin imzalanması hansı zərurətdən irəli gəlirdi?***

***İsmayıl Hacıyev:*** – Mühüm bir tarixi məqama toxundunuz. XX əsrin əvvəllərində Antanta dövlətləri Rusiya və Türkiyə dövlətlərinə qarşı mübarizə aparırdı. Rusiyada bolşeviklərin hakimiyyətə gəlməsi, Türkiyədə isə istiqlal mübarizəsi imperialist dövlətlərini qıcıqlandırır və bunları qəbul etmirdilər. Hətta İstanbul ingilislər tərəfindən tutulmuşdu. Belə vəziyyət Rusiya ilə Türkiyəni birgə mübarizə üçün yaxınlaşdırdı. Bunun üçün 1921-ci ilin fevral-mart aylarında Moskvada Rusiya-Türkiyə konfransı keçirilmiş və yekun olaraq qeyd etdiyiniz kimi, 16 mart 1921-ci ildə "Dostluq və qardaşlıq haqqında" Moskva müqaviləsi 16 maddədən və 2 əlavədən ibarət qəbul edilmişdi. Müqavilənin 3-cü maddəsinə əsasən belə bir qərar qəbul olundu ki, Naxçıvan vilayəti bu müqavilənin 1(C) əlavəsində göstərilən sərhədlərdə Azərbaycanın himayəsi altında, həmin protektoratı Azərbaycanın heç bir üçüncü dövlətə güzəştə getməməsi şərti ilə muxtar ərazi təşkil edir.

Moskva müqaviləsindən sonra Türkiyə çalışırdı ki, Cənubi Qafqaz respublikaları ilə ərazi-sərhəd məsələlərini dəqiqləşdirsin. Məlum olduğu kimi, XIX əsrin 70-80-ci illərində Rusiya ilə Osmanlı dövləti arasında olmuş müharibə nəticəsində Rusiya osmanlıların bir sıra ərazilərini tutmuş və Türkiyənin şərq ərazilərində "Türkiyə Ermənistanı" deyilən dövlət yaratmaq istəyirdi. Lakin 1918-1920-ci illərdə yaranmış ictimai-siyasi vəziyyətlə əlaqədar Rusiya dövləti ümumi sahəsi 22 min kvadratkilometrə yaxın olan əraziləri Türkiyəyə qaytardı.

Türkiyə 1920-ci ilin sentyabr-dekabr aylarında Ararat (Ermənistan) Respublikası ilə də müharibə aparmalı olmuş və bir sıra əraziləri tutmuşdu. Ona görə də Rusiya-Türkiyə arasındakı ərazi-sərhəd məsələləri aydınlaşdırılsa da, Türkiyə ilə Cənubi Qafqaz respublikaları, xüsusilə Gürcüstan və Ermənistanla sərhədlər dəqiqləşdirilməli idi. 1920-ci il dekabrın 2-də Türkiyə ilə Ermənistan arasında Gümrü müqaviləsi imzalansa da, (bu müqavilə daşnaklarla bağlanılmışdı), həmin müqaviləni nə Rusiya, nə də sovet Ermənistanı (artıq Ermənistan sovetləşmişdi) qəbul edirdi. Bu mübahisəli məsələləri aradan qaldırmaq üçün Qars konfransının keçirilməsi razılaşdırıldı.

***– Və nəticə etibarilə, Naxçıvan muxtariyyətini möhkəmləndirən başlıca hüquqi sənəd – Qars müqaviləsi imzalandı.***

***Elbrus İsayev:*** – Sizin də çox haqlı olaraq vurğuladığınız kimi, 1921-ci il oktyabrın 13-də Azərbaycan, Ermənistan və Gürcüstan Sovet Sosialist respublikaları ilə Türkiyə arasında imzalanmış Qars müqaviləsi Naxçıvanın muxtariyyət statusuna təminat verən çox mühüm hüquqi, siyasi və beynəlxalq sənəddir. 20 maddə və 3 əlavədən ibarət olmaqla, müddətsiz imzalanan müqavilənin 5-ci maddəsi bilavasitə Naxçıvanın statusu ilə bağlıdır. Həmin maddəyə əsasən tərəflər Naxçıvanın muxtar respublika kimi Azərbaycanın tərkibində qalması məsələsində razılığa gəliblər. Beləliklə, bu müqavilə sayəsində Naxçıvanın sərhədləri bir daha dəqiqləşdirilib. Erməni daşnaklarının cidd-cəhdlərinə və silahlı təxribatlarına baxmayaraq, Naxçıvan əhalisinin qətiyyəti, dönməz iradəsi, Türkiyənin prinsipial mövqeyi və Behbud ağa Şahtaxtinski kimi siyasi xadimlərin səyləri nəticəsində Naxçıvan Azərbaycanın tərkibində saxlanılıb. Qars müqaviləsi 1922-ci ilin mart-iyun aylarında müqaviləni imzalayan ölkələrin qanunverici orqanlarında təsdiq edilib və həmin il sentyabrın 11-dən qüvvəyə minib.

***– Bəs həmin müqavilə beynəlxalq siyasi aləmdə Naxçıvana nə verdi?***

***Elman Cəfərli:*** – İcazənizlə, bu aktual məsələ ilə bağlı mən öz fikirlərimi diqqətinizə çatdırardım. Müqavilə Azərbaycana beynəlxalq müstəvidə öz ərazi bütövlüyünü qorumaq üçün geniş imkanlar yaratdı. Bir tərəfdən Naxçıvanın erməni hərbi təcavüzündən ötən bir əsr ərzində müdafiə edilməsinə, digər tərəfdən onun tarixi Azərbaycan torpaqları kimi qorunub saxlanılmasına nail olundu. Eyni zamanda Naxçıvanın Zəngəzurun işğalı ilə ölkəmizin əsas hissəsindən coğrafi baxımdan ayrı düşməsi amili beynəlxalq siyasi aləmdə Azərbaycan torpaqlarının 1918-1920-ci illərdə işğalını isbat edən danılmaz fakt kimi istifadə olundu. Onsuz da tarixi Azərbaycan torpaqlarında 1918-ci ildə yaradılan qondarma, heç bir tarixi-coğrafi və siyasi əsası olmayan Ermənistan ötən bir əsr ərzində Naxçıvana olan ərazi iddialarından heç vaxt imtina etməsə belə, Qars müqaviləsinə imza atan tərəflərdən biri kimi, öz məkrli və işğalçı niyyətini həyata keçirmək istərkən, müqavilənin timsalında öz qarşısında daim bir sipər gördü. Məhz bu amil beynəlxalq hüquq baxımından və diplomatik müstəvidə 1990-cı illərin əvvəllərində ermənilərin açıq hərbi təcavüzünün genişləndiyi mərhələdə Naxçıvanın Azərbaycanın tərkib hissəsi kimi qorunub saxlanılmasında əvəzsiz rol oynadı. Belə ki, ərazi məsələsi həm müvafiq dövlətin hüququ, həm də beynəlxalq hüquq əsasında tənzimlənən predmetidir. Beynəlxalq müqavilələr beynəlxalq hüququn tərkib hissəsi sayıldığından, Naxçıvan muxtariyyəti ilə bağlı əsas təsisedici sənəd Moskva və Qars müqavilələridir. Məhz həmin beynəlxalq müqavilələrdən irəli gələn öhdəlik əsasında 1924-cü ildə Naxçıvan Muxtar Respublikası təsis edilib.

***– İsmayıl müəllim, növbəti sualı muxtariyyət tariximizin mükəmməl tədqiqatçısı kimi sizə ünvanlamaq istərdim. Həmin müqavilədə Naxçıvanın statusu necə müəyyən olunmuşdu?***

***İsmayıl Hacıyev:*** – Qeyd etdiyimiz kimi, Naxçıvanın statusu məsələsi Rusiya ilə Türkiyə arasında bağlanmış Moskva müqaviləsi ilə müəyyən olunmuşdu. Həmin müqavilədə Naxçıvanın statusunda 3 mühüm məsələ yer almışdı: 1. Naxçıvana muxtariyyət statusu verilir. 2. Naxçıvan Azərbaycanın himayəsi altında olmalıdır. 3. Azərbaycan bu himayə haqqını heç bir zaman üçüncü bir dövlətə güzəştə getməyəcəkdir.

Qars konfransında da (1921, 26 sentyabr-13 oktyabr) Türkiyənin Cənubi Qafqaz respublikaları ilə ərazilərinin dəqiqləşdirilməsi ilə yanaşı, Naxçıvan vilayətinin statusu məsələsi də müzakirə olundu. Adətən, Qars müqaviləsi ilə təsdiq edilmiş Naxçıvanın muxtariyyət statusu Moskva müqaviləsindəki 3 məsələdən bir qədər fərqlidir. Müqavilədə yenə də Naxçıvanın Azərbaycanın tərkibində saxlanması və muxtariyyət verilməsi məsələsi təsbit olunmuşdur. Moskva müqaviləsindən fərqli olaraq Qars müqaviləsinin V maddəsində Naxçıvanın statusu məsələsində razılığa gələn tərəflər müəyyən edilmişdir – bunlar Türkiyə, Azərbaycan və Ermənistan hökumətləri olmuşlar. Müqavilənin bu maddəsində göstərilirdi ki, "Türkiyə hökuməti, Azərbaycan və Ermənistan Sovet respublikaları müqavilənin III əlavəsində göstərilən sərhədlər daxilində Naxçıvan vilayətinin Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil etməsi haqqında razılığa gəlirlər". Naxçıvan bölgəsinin ərazisinin sərhədləri də müqavilənin III əlavəsində göstərilib.

Ardı 3-cü səhifədə

***– Belə demək olar ki, Moskva və Qars müqavilələri Naxçıvanın statusu və tabeçiliyi məsələsini beynəlxalq tam şəkildə həll etdi.***

***İsmayıl Hacıyev:*** – Bəli, doğrudur, lakin həlli ağır olan məsələ bu müqavilələrin müddəalarının icrası olmuşdur. Qars müqaviləsi imzalandıqdan sonra Naxçıvan bölgəsi Sovet Sosialist Respublikası elan edildi.

Qars müqaviləsi bu günədək etibarsız elan olunmayıb və bundan sonra da öz hüquqi qüvvəsini saxlayacaqdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi, ***"Qars müqaviləsi dünən olduğu kimi, bu gün də, gələcəkdə də Naxçıvanın muxtariyyət statusuna təminat verən çox mühüm hüquqi, siyasi və beynəlxalq sənəddir".***

***– Bu müqavilə imzalanandan sonra Naxçıvanda baş verən ictimai-siyasi hadisələr barədə nə deyə bilərsiniz?..***

***Elbrus İsayev:*** – Azərbaycanın tərkibində Naxçıvan Muxtar Respublikasının yaradılması və fəaliyyəti Azərbaycanın Türkiyə, Rusiya və Gürcüstanla əlaqələrinin formalaşdırılması və inkişafında, ərazi bütövlüyünün qorunmasında, regionda sülh və təhlükəsizliyin təmin olunmasında mühüm əhəmiyyətə malikdir. Moskva və Qars müqavilələri ilə Naxçıvan Muxtar Respublikasının ərazilərinin müəyyən edilməsi burada ərazi mübahisələrinə son qoymuş, tərəflərə öz sərhədlərini konkretləşdirmək imkanı yaratmışdır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin bu dəyərli fikirləri Naxçıvanın muxtariyyət statusunun əhəmiyyətini çox dolğun şəkildə ifadə edir: ***"Naxçıvanın muxtariyyət tarixi nailiyyətdir. Biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının da qaytarılması üçün ona xidmət edən çox böyük bir amildir. Biz bu amili qoruyub saxlamalıyıq".***

Naxçıvanın muxtariyyət tarixinin ilk illəri olduqca ağır siyasi, sosial-iqtisadi və mədəni problemlər dövrüdür. Bu dövrlərdə Naxçıvanın hüquqlarını məhdudlaşdırmaq istəyənlər Azərbaycanın bu qədim torpağında inkişafa mane olmaq məqsədi güdürdülər. 1925-ci ilin martında guya Naxçıvanın hakimiyyət strukturlarındakı "xan-bəy elementləri"nin fəaliyyətini araşdırmaq üçün Naxçıvana xüsusi komissiya göndərilmiş, bir gecədə 50 rəhbər işçi həbs olunmuş, onlardan 48-i repressiyaya məruz qalmışdı. Bunlar o adamlar idilər ki, Naxçıvanın ermənilərdən müdafiəsində xüsusi fəallıq göstərmişdilər. Naxçıvanın muxtariyyət tarixinin 1969-1987-ci illəri əhatə edən ikinci dövrü dirçəliş dövrüdür. Bu dövrdə böyük dövlət xadimi möhtərəm Heydər Əliyevin siyasi hakimiyyətə gəlişi ilə doğma Azərbaycanımız, onunla birlikdə isə Naxçıvan Muxtar Respublikası da özünün əsl inkişafına qovuşmuşdur.

***– Görkəmli dövlət xadimi Heydər Əliyev Qars müqaviləsinə böyük əhəmiyyət verirdi...***

***İsmayıl Hacıyev:*** – Məkrli qonşularımız 1920-ci il 28 dekabr Bəyanatı ilə Naxçıvanın müstəqilliyini tanımış, Qars müqaviləsi ilə də tərəf kimi Naxçıvanın muxtariyyət statusuna, ərazi-sərhəd məsələlərinə imza atmışlar. Bununla belə, bu gün də onlar Naxçıvan iddialarından əl çəkmirlər. Bir həqiqət vardır ki, Qars müqaviləsi müddətsiz imzalanmış, birtərəfli qaydada o, ləğv oluna bilməz və bu müqavilə Naxçıvanın qarantı rolunu oynayır.

Qars beynəlxalq müqaviləsi ilə Türkiyə və Cənubi Qafqaz respublikaları Moskva müqaviləsini qəbul etmiş, Rusiya da Naxçıvanı Azərbaycanın tərkibində muxtar qurum kimi tanımış və ona beynəlxalq hüquqi təminat vermişlər.

Müstəqil Azərbaycan dövlətinin yaradıcısı, ümummilli lider Heydər Əliyev bununla əlaqədar demişdir ki, Azərbaycanın ovaxtkı hökuməti çox ciddi mövqe göstərərək həmin Qars müqaviləsində Naxçıvanın statusunu müəyyən etmiş və Naxçıvana muxtariyyət verilməsi haqqında qərar qəbul edilmişdir. Sizin də qeyd etdiyiniz kimi ulu öndər Heydər Əliyev Naxçıvanın ərazi bütövlüyünün və muxtariyyət statusunun qorunub saxlanılmasında Qars müqaviləsinin əhəmiyyətini daim yüksək qiymətləndirərək demişdir: ***"Naxçıvanın statusunu qoruyub saxlamaq üçün Moskva müqaviləsinin və xüsusən Qars müqaviləsinin böyük əhəmiyyəti olubdur. Naxçıvan Azərbaycanın əsas torpağından ayrı düşdüyünə görə Naxçıvanın bütövlüyünü, təhlükəsizliyini, dövlətçiliyini, muxtariyyətini gələcəkdə təmin etmək üçün Qars müqaviləsi bizim üçün çox böyük, əvəzi olmayan bir sənəddir".***

***– Yeri gəlmişkən, görkəmli dövlət xadiminin ötən əsrin 90-cı illərində həmin müqaviləni Türkiyədə gündəmə gətirməsi hadisələrin inkişafına necə təsir göstərdi?***

***Elman Cəfərli:*** – Zəruri məsələyə toxundunuz. Bununla bağlı demək istərdim ki, Naxçıvanın işğaldan müdafiəsi məsələsi özünün kompleks həllini tələb edirdi. Bunun da yolu, əslində, unudulmuş Moskva və Qars müqavilələrinin yenidən aktuallaşdırılmasından keçirdi. Yaranmış kəskin hərbi-siyasi vəziyyətdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, görkəmli dövlət xadimi Heydər Əliyev həmin müqavilələri əsas götürərək, uğurlu bir diplomatik proses başladı və Naxçıvanın hərbi sahədə olduğu kimi, hüquqi-siyasi və diplomatik sahədə də müdafiəsi işi uğurla təşkil olundu. Nəticədə, hər iki müqavilənin əsas tərəflərindən biri olan Türkiyə Cümhuriyyəti Naxçıvanın təhlükəsizliyinin müdafiəsi işinə fəal şəkildə qoşuldu. 1992-ci il may ayında ermənilərin muxtar respublikanın Sədərək rayonuna hücumu ilə əlaqədar Türkiyə hökuməti bəyanat qəbul edərək, 1921-ci il Qars müqaviləsinin Naxçıvan muxtariyyətinin qarantı olduğunu bütün dünyaya bəyan etdi. Türkiyə, nəinki özünün fəal siyasi-diplomatik gedişləri ilə Naxçıvanın müdafiəsinə qoşuldu, eyni zamanda onun dəstəyi ilə 1992-ci ilin may ayında düşmənin hərbi əməliyyatları genişləndirdiyi bir vaxtda, dünyanın 57 dövləti Ermənistanın Naxçıvana təcavüzünü qətiyyətlə pislədi ki, bu da, bütövlükdə, real nəticəyə gətirib çıxaran böyük diplomatik uğur idi.

***– Azərbaycan-Türkiyə siyasi müttəfiqliyinin etibarlılığını çox sonralar ümummilli lider Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işləyərkən Süleyman Dəmirəllə müstəqil Azərbaycan dövlətinin Türkiyə ilə əlaqələrinin yeni mərhələsinin şahidi olduq. Bu sarsılmaz birliyin ən güclü nümunəsi isə 44 günlük müharibədə Türkiyənin Azərbaycanın yanında olması idi.***

***Elbrus İsayev:*** – Ulu öndərimizin siyasi fəaliyyətinin Naxçıvan dövründə həyata keçirdiyi tədbirlər, hazırladığı siyasi sənədlər təkcə Naxçıvanın yox, eyni zamanda doğma Azərbaycanımızın da xilasına xidmət edirdi. Böyük öndər Naxçıvanda keçən 3 ili ərzində görülən bütün tədbirlər müstəqil dövlətimizin daha da möhkəmlənməsinə yönəlmiş milli inkişaf konsepsiyasının tərkib hissələri idi. Sizin də vurğuladığınız kimi, ulu öndər Heydər Əliyevin Naxçıvan dövrü siyasi fəaliyyətində ölkəmizin Türkiyə ilə əlaqələrinin qurulmasında və inkişafında iki dahi şəxsiyyətin – Heydər Əliyev-Süleyman Dəmirəl münasibətlərinin böyük dostluq və qardaşlıq səviyyəsində olması da mühüm rol oynamışdı. Bir az əvvəl də deyildiyi kimi, 1992-ci ilin mayında ermənilərin Sədərək rayonuna hücumu ilə əlaqədar Türkiyə hökuməti bəyanat qəbul etmiş, 1921-ci il Qars müqaviləsinin şərtlərinə əsasən Naxçıvan Muxtar Respublikasının muxtariyyətinin qarantı olduğunu dünyaya bəyan etmişdi. O zaman görkəmli dövlət xadimi Heydər Əliyev Türkiyənin dövlət və hökumət rəhbərləri ilə əlaqə yaradaraq Qars müqaviləsində olan öhdəliklərin yenidən rəsmi şəkildə tanınmasına nail oldu.

Bu hadisədən iki ay sonra 1992-ci ilin iyulunda Türkiyəyə səfər edən Heydər Əliyevin dövlət rəhbərləri və ictimaiyyətlə görüşlərində də bu məsələ diqqətdə olmuşdu. Bu səfər çərçivəsində Naxçıvanda Türkiyə konsulluğunun açılması məsələsi həllini tapmış, 7 ay sonra 1993-cü ilin 5 fevralında konsulluq fəaliyyətə başlamışdır.

***Elman Cəfərli:*** – Sualınıza cavab olaraq mən də əlavə etmək istərdim ki, Türkiyə Cümhuriyyətinin görkəmli dövlət və siyasi xadimlərindən olan Süleyman Dəmirəl və ulu öndər Heydər Əliyev kimi iki nəhəng dövlət xadiminin o dövrdə formalaşan şəxsi dostluq münasibətləri sonradan iki qardaş dövlət arasında həm də sürətli siyasi-strateji yaxınlaşmanın möhkəm təməlini təşkil etdi. Ümummilli liderimiz Heydər Əliyevin başçılığı ilə Naxçıvan nümayəndə heyətinin Türkiyəyə rəsmi səfəri bunun ifadəsi oldu. 1992-ci ilin martında Türkiyənin Baş naziri Süleyman Dəmirəlin göndərdiyi şəxsi təyyarə ilə görkəmli dövlət xadiminin qardaş ölkəyə işgüzar səfəri çərçivəsində imzalanan 13 maddədən ibarət sənəddə muxtar respublikaya maliyyə, iqtisadi, texniki dəstək verilməsi, muxtar respublikanın zəruri ehtiyaclarının ödənilməsi üçün 100 milyon ABŞ dolları həcmində kreditin ayrılması, tərəflər arasında enerji layihələrinin reallaşdırılması, nəqliyyat strukturunun yaradılması, bank işi, turizm və informasiya mübadiləsi sahəsində geniş əməkdaşlıq əlaqələrinin qurulması, 100 nəfər tələbənin Türkiyəyə təhsil almağa göndərilməsi də razılaşdırıldı.

Azərbaycan-Türkiyə əlaqələrinin inkişafında və iqtisadi blokadanın yarılmasında 1992-ci il may ayının 28-də Sədərək-Dilucu körpüsünün açılışı mühüm addım oldu.

Ümummilli liderimizin 1993-2000-ci illərdə Türkiyə Cümhuriyyətinin Prezidenti olmuş Süleyman Dəmirəllə şəxsi dostluq münasibətlərinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Türkiyə Cümhuriyyətinin əvvəlcə Baş naziri, 2017-ci ildən isə Prezidenti vəzifəsində çalışan Rəcəb Tayyib Ərdoğanla eyni səmimiyyətlə, yeni dövrün tələblərinə uyğun daha sıx inkişaf etdirilməsi dünyada bənzəri olmayan iki qardaş dövlətin qarşılıqlı fəaliyyəti nümunəsini meydana çıxarmışdır. Məhz bu kontekstdə ötən il sentyabrın 27-dən noyabrın 10-dək torpaqlarımızın düşmən işğalından azad olunması uğrunda baş verən 44 günlük Vətən müharibəsində Türkiyə dövləti və xalqı Azərbaycanı siyasi və diplomatik cəbhədə fəal şəkildə müdafiə etdi, əvəzsiz mənəvi dəstəyini nümayiş etdirdi.

Məhz bu sarsılmaz həmrəylik və mənəvi birlikdən doğan gücün 44 günlük Vətən müharibəsinin zəfərlə başa çatdırılmasında mühüm siyasi rol oynadığı danılmazdır.

***– Dəvətimizi qəbul edib redaksiyamıza gəldiyiniz və maraqlı söhbət üçün sizə minnətdarlığımızı bildiririk. Ali Məclis Sədrinin adıçəkilən sərəncamına əsasən təsdiq olunan Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin yerinə yetirilməsində sizə müvəffəqiyyətlər arzulayırıq.***

**Hazırladı: Muxtar MƏMMƏDOV**

## *"Sabahın tədqiqatçıları"* layihəsi çərçivəsində tədbir olub



***AMEA Naxçıvan Bölməsində Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi ilə birgə "Sabahın tədqiqatçıları" layihəsi çərçivəsində "Əyləncəli kimya" adlı tədbir keçirilib.***

Bölmənin Təbii Ehtiyatlar İnstitutunda baş tutan tədbiri giriş sözü ilə açan institutun direktoru, AMEA-nın müxbir üzvü Tofiq Əliyev bilik yarışlarının keçirilməsinin şagirdlərin elmi və ictimai fəallığının artırılmasında xüsusi əhəmiyyəti olduğunu bildirib.

Əvvəlcə "Sabahın tədqiqatçıları" layihəsinin iştirakçıları kimya elminin tarixi, kimyəvi elementlərin dövri sistemi, Azərbaycanda kimya sənayesinin inkişafı, tanınmış kimyaçı alimlərin həyatı və elmi fəaliyyəti haqqında məlumat veriblər.

Sonra viktorina başlayıb.

Gərgin bilik mübarizəsi şəklində keçən viktorina başa çatdıqdan sonra AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev çıxış edərək "Sabahın tədqiqatçıları" layihəsinin şagirdlərin dünyagörüşünün formalaşdırılmasında, elmi yeniliklərin öyrənilməsi və praktikaya tətbiqindəki önəmindən danışıb.

Naxçıvan Muxtar Respublikası Təhsil nazirinin müavini Ovni Muradov "Sabahın tədqiqatçıları" layihəsi çərçivəsində aparılan silsilə tədbirlər haqqında məlumat verib.

Sonda fəallıq göstərən şagirdlərə sertifikatlar təqdim olunub, onlar hədiyyələrlə mükafatlandırılıblar.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

## Teleradiolarda peşəkarlıq səviyyəsinin yüksəldilməsi diqqət mərkəzindədir

Naxçıvan Muxtar Respublikasının Televiziya və Radio Şurası 2021-ci ilin fevral ayında muxtar respublikada fəaliyyət göstərən teleradioların fəaliyyətini izləmiş, texniki və yaradıcılıq baxımından keyfiyyətin yüksəldilməsinə xüsusi diqqət göstərməklə yanaşı, həm də teleradioların monitorinqini aparmışdır.

Naxçıvan Dövlət Televiziyasının öz teleməhsulları efirin 72 faizini əhatə etmiş, digər telekanalların istehsalı olan materialların yayımı minimum həddə endirilmişdir. Fevral ayında verilişlərin növbəti 126 sayı efirə təqdim olunmuşdur.

Əvvəlki aylarda olduğu kimi, 2021-ci ilin fevral ayında da vətənpərvərlik mövzusu diqqət mərkəzində olmuşdur. Şura Naxçıvan Dövlət Radiosunun efirini mütəmadi olaraq izləmiş, radioda fəaliyyət göstərən redaksiyaların fəaliyyətini müqayisəli şəkildə təhlil etmişdir. Radio fevral ayı ərzində 551 saat efirdə olmuşdur. Ümumi efirin 42 faizini radionun öz istehsalı olan verilişlər təşkil etmişdir.

2021-ci ilin ölkəmizdə "Nizami Gəncəvi ili" elan edilməsi ilə əlaqədar olaraq radionun canlı proqramlarında Nizami irsindən bəhs edilmiş, görkəmli şairin sözlərinə bəstələnən musiqilərə və Nizami poeziyasına tez-tez yer verilmişdir. Şura tərəfindən Naxçıvan Dövlət Radiosunun şəbəkə cədvəlinə nəzarət edilmiş və ay ərzində şəbəkə pozulması müşahidə edilməmişdir.

Şura "Kanal 35" televiziyasının fevral ayındakı fəaliyyətini diqqətdə saxlamış, televiziyanın təhsil profilli verilişləri analiz olunmuşdur. Qeyd edək ki, televiziya yayım siyasətini həftəlik proqram cədvəlləri əsasında qurmuşdur.

Məktəblilərin bilik və bacarıqlarının artırılması məqsədilə fevral ayı ərzində "Dərs vaxtı" teledərslərin 79 sayı, "Peşə təhsili"nin 4 sayı, STEAM dərslərinin 3 sayı, "Nizami-880" teledərslərinin 2 sayı hazırlanaraq efirə yayımlanmışdır. Bu verilişlər ümumi efirin 47,7 faizini təşkil etmişdir. Fevral ayında şagirdlərin məlumatlandırılması üçün 38 qısametrajlı maarifləndirici çarx televiziyada yayımlanmışdır.

Azərbaycan Dövlət Televiziyası və Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə keçirilən "Xəmsə" milli intellektual oyunu çərçivəsində Gənclər arasında XII Azərbaycan çempionatının 3 sayı fevral ayında "Kanal 35" televiziyasında izləyicilərə təqdim olunmuşdur.

Şura əməkdaşları fevral ayında "Naxçıvanın səsi" radiosunun efirini müntəzəm olaraq izləmiş və monitorinqini aparmışdır. Bəhs edilən dövrdə radio 224 saat efirdə olmuşdur. Efir müddətində 49 saat canlı yayım proqramları və verilişlər hazırlanaraq dinləyicilərə təqdim edilmişdir.

Hesabat dövründə şura tərəfindən Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi, elm, təhsil və mədəniyyət sahələrində əldə edilən nailiyyətlər, burada aparılan infrastruktur quruculuğu ilə bağlı mərkəzi mətbuat orqanları üçün 119-u mətbuat xidmətlərinin materialları olmaqla, 154 xəbər, 7 icmal və analitik material, 4 müsahibə, 1 reportaj və 1 fotoreportaj hazırlanmışdır.

***Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurası***

## Dram müsabiqəsi keçirilib



***Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində dram müsabiqəsinin şəhər mərhələsi keçirilib.***

Beş məktəb üzrə 54 şagirdin iştirak etdiyi şəhər mərhələsində Mirvarid Dilbazinin "Xocalı fəryadı", Cəlil Məmmədquluzadənin "Poçt qutusu", Süleyman Rüstəmin "Ana və poçtalyon", Hüseyn Cavidin "Qız məktəbində", "Topal Teymur" əsərləri təqdim olunub.

Müsabiqənin şəhər mərhələsində I yerə Heydər Əliyev adına Hərbi Lisey, II yerə Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Lisey, III yerə isə Heydər Əliyev adına tam orta məktəb, Naxçıvan Qarnizonu tam orta məktəbi və Naxçıvan Qızlar Liseyi layiq görülüb.

Qaliblər diplomlarla mükafatlandırılıb, I yerə layiq görülən Heydər Əliyev adına Hərbi Lisey müsabiqənin muxtar respublika mərhələsində iştirak edəcək.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsi***

***Yol gedirik bir yönə, hər kəsin yönü birdir, min yol gedir bir evə, hər kəsin evi birdir. Bu ev kiçik olsa da, içində ümman qədər kədəri var, dərdi var, dağlar qədər fərəhi, göylər qədər fəxri var. Bu ev elə bir evdir, hər küncü, hər bucağı yalnız ondan danışır. Hər xatirənin baş qəhrəmanı, ancaq odur, yalnız o anılır, o xatırlanır. Həsrətlə, hicranla göz boylanır əlçatmaz, ünyetməz o xatirələrə, nə çarə, gedən dönməz geriyə. Amma bu gedişin cismani gediş olduğunu dərk etmək böyük təsəlli deyilmi?***

*Əfsanəyə dönən ömürlər*

# Ömrün şəhidlik zirvəsi



Oturmuşuq... Ortalığa sükut çöküb... “Dörd divarına sükut çökən bu ev, kim bilir, bir zamanlar nə sevinclərə, nə qəh-qəhələrə, nə qəmsiz-kədərsiz günlərə şahidlik edib”, – deyə düşünürəm. Bir zamanlar üç igidə ata ocağı olan bu ev indi şəhid evidir. Otağın baş tərəfində bir rəf yerləşir, bir gözündə ona aid kitablar. Bəlkə də onların içində oxuyub tamamlaya bilmədiyi bir kitab hələ də onu gözləyir. Rəfin üzərindəki şəkillərdən izləyir bizi, elə xoş təbəssümlə baxır ki, sanki hiss edir onun üçün gəldiyimizi.

Səssizcə oturmuşuq... Bu səssizliyi pozmaq lazımdır axı. Amma heç bilmirəm nə deyim? Haradan başlayım? Onu necə tanıyım? Kimdən soruşum onu? Gözümü zillədiyim bir nöqtədən güclə ayırıram və bütün mənəvi gücümü toplayıb, şəhid anasının üzünə baxıram. Əvvəl gözünü Nicatın şəklinə dikib susur, sonra baxışları divarlarda, tavanda gəzişir. Hiss edirəm ağlamaq istəmir. Bəlkə, qüruruna sığışdırmır, bəlkə, dərdini təzələmək istəmir, bilmirəm. Amma qadınlar göz yaşlarını nə vaxt gizlədə bilib ki?! Ortalığa çökən sükutu özü pozur: “Çox mərd, qeyrətli, fədakar oğul idi, Nicat. Heç kəsin xətrinə dəymədi. Hərdən deyirəm, kaş ki, bircə dəfə qəlbimi qırardı, xətrimə dəyərdi, bəlkə, bu qədər çox incitməzdi gedişi məni. Hər addımında bizimlə məsləhətləşərdi, həmişə deyərdi ki, ana, nə zaman ki, sənin xeyir-duan olmadan bir iş tutsam, həmişə ziyan çəkirəm. O qədər ifallı oğul idi ki, Nicat. Sevgisini bəlli etməkdə çətinlik çəksə də, hər birimizin qayğısını da elə o çəkərdi. Nicatla dost idik biz. Hər sirrini mənimlə bölüşərdi. Arzuları var idi, oktyabrın 23-ü nişan taxacaqdıq, qismət olmadı. Arzusu gözündə qaldı balamın.

“Hərb peşəsinə uşaqlıqdan həvəsi var idi”, – deyir anası Minayə xanım. Bu şərəfli yolu özü seçmişdi. Şərəfli zabitə məxsus olan sirr saxlamaq keyfiyyətinə malik idi. Müharibə başlayandan deyirdi ki, mən döyüşdə deyiləm. Sən demə, narahat olmayaq deyə, elə deyirmiş. Şəhidlik zirvəsinə ucalana qədər biz onun döyüşdə olduğundan xəbərsizdik. Bu gün də əsgərləri zəng vurub halallıq istəyirlər, deyirlər ki, o bizə komandir yox, qardaş olmuşdu.

…Bir dostu varmış Nicatın. Bağça yoldaşlığından döyüş yoldaşlığına qədər. Bir məktəbə getmişdilər. Eyni ali məktəbə qəbul olub, Bakıda da bir evdə yoldaşlıq etmişdilər. Qismət elə gətirmişdi ki, Vətən savaşında da döyüş yoldaşı olmuşdular. Deyir ki, Nicatın hərbçi mətinliyi hər kəsə örnək idi. Bütün çətinliklərin öhdəsindən gələrdi. Nizamlı-intizamlı idi Nicat. Orduda çətinliklər olur, ordu kişilik məktəbidir. Nicatı bir dəfə də olsun, o çətinliklərdən şikayətlənən görmədilər. Aza kifayətlənən, çoxa şükür edən idi. Ətrafındakı əsgərlərin hörmətini qazanmışdı. Hər maaş aldıqda əsgərlərinin cibinə pul qoyardı. 4 dil bilirdi. O qədər dərin, dünyagörüşlü insan idi ki, hər kəs onunla söhbət etməyə can atırdı.

Atası Rizvan Məmmədli deyir ki, Vətən dara düşəndə onun qeyrətli oğulları ondan ötrü can verməli, qan tökməli, onun sipəri olmalıdır. Nicat da belə oğullardan idi. O, torpağa bağlılıq, Vətənə sədaqət ruhunda böyümüşdü. Elə bil torpaq üçün yaranmışdı. Bəlkə də, qismət, məsləhət belə imiş. Ölüm sevinməsin! Çünki o ölmədi. Əksinə, ölməzlik qazandı. Düzdür, aramızdan ayrıldığı üçün darıxırıq, həsrətini çəkirik, amma illərdir, düşmən tapdağı altındakı torpaqlarımızın azad edilməsində Nicatın da əməyi olması qürur hissi yaşadır bizə.

…Sən sağ ol, Vətən! Daha bir övladın sənin müqəddəsliyin uğrunda gözünü qırpmadan canını fəda etdi. Bir ata cənazənin yanında ürəyi yansa da, başı dik dayandı. Adi ölüm olsaydı, bu, bir ata üçün çox çətin və əzablı olardı. Min əziyyətlə böyütdüyü oğluna nə böyük arzular bəsləmişdi. Lakin şəhid atası olduğu üçün mətinliyi, vətənpərvərliyi bu hisslərin hamısına qalib gəldi. Başını dik tutub göz yaşlarını ovundurmağa çalışdı. Dindirəndə həzin bir səslə pıçıldadı: “Onlarla belə oğul fəda edərəm torpaq uğrunda, təki Vətən sağ olsun”.

Gənc övladını torpağa tapşıran, heç bir təsəlli ilə ovunmayan ana da “Vətən sağ olsun”, – deyir, oğlunun nəşi üstünə sərilən Bayrağımızdan onun qoxsunu alır, onun əsgər yoldaşlarından təskinlik tapır. Hər kəs baş əyir məzarının önündə, “səninlə fəxr edirik, Azərbaycan əsgəri, şərəflə qorudun Vətəni”, – deyir.

*Haşiyə*: Nicat Rizvan oğlu Məmmədli 31 iyul 1999-cu ildə Culfa rayonunda anadan olmuşdu. 2005-ci ildə Culfa şəhər 2 nömrəli tam orta məktəbin birinci sinfinə qədəm qoymuşdu. 2013-cü ildə isə Heydər Əliyev adına Hərbi Liseyə qəbul olunmuşdu. Burada oxuduğu illərdə təşəkkürnamə, Fəxri fərmanla mükafatlandırılmışdı. 2017-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olmuş, 2020-ci ildə Ali Hərbi Məktəbi leytenant rütbəsilə fərqlənmə ilə bitirmişdi. Orada oxuduğu illərdə bütün müəllimlərinin və yoldaşlarının sevgisini qazanan Nicat ötən il oktyabr ayının əvvəllərində döyüşlərdə böyük qəhrəmanlıq və şücaət göstərərək əbədi ölməzliyə qovdu. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak etdiyi və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti cənab İlham Əliyevin 2020-ci il 15 dekabr tarixli Sərəncamına əsasən Nicat Məmmədli ölümündən sonra “Vətən uğrunda” medalı ilə təltif edilib.

***Torpağın üzü soyuq olur, – deyirlər, – söndürür insanın içindəki alovu, ovudur kədəri. Üstəlik, şəhidlik zirvəsinin yüzlərdən, minlərdən, milyonlardan birinə qismət olduğunu düşünmək ən böyük təsəlli deyilmi gəridə qalanlara? Bu şərəfli ölüm qəhrəmancasına şəhid olan Nicata da qismət oldu. Şəhadətin mübarək, Vətən oğlu!***

**Gülcamal TAHİROVA**

*Düşünək, düşündürək*

# Nənə, mənə nağıl danış!

*Nənə, mənə nağıl danış. Həmin nağıl qəhrəmanları çox güclü olsun. Məlikməmmədə, Ağ atlı oğlana bənzəsinlər. Dağlar aşıb, sehrli yollardan keçsinlər. Sonda da göydən üç alma düşsün...*

*Hamımız xalq nağıllarımızı bəzəyən “hamam-hamam içində, xəlbir saman içində, dəvə dəlləklik eylər, köhnə hamam içində, günlərin bir günündə, Məmməd Nəsir tinində, biri varıydı, biri yoxuydu” ifadələri ilə başlayan nağıllarımızla böyüyüb, boya-başa çatmışıq. Həmin nağıllar o qədər gerçək, o qədər inandırıcı idi ki, biz də Məlikməmməd kimi güclü, Fərhad kimi dağ yarmaq, Cırtdan kimi qaranlıq yox, işıq gələn yolu tapıb aydınlığa çıxmaq istəyirdik. Bəzən gerçək qəhrəmanların nağıllarını da eşitməyimiz az olmurdu. Analarımız, nənələrimiz onu elə məharətlə öz dillərində səsləndirərdi ki, tariximizi də balacalıqdan bu nağılların dilindən öyrənərdik.*

Babək, Koroğlu kimi qəhrəmanlarımızla dillərə dastan olmaq, Atabəy Şəmsəddin Eldəniz qüdrətində dövlət idarəçisi, Sara xatun xisləti diplomat, Şah İsmayıl Xətai qeyrətli, mərd, igid Vətən sevdalısı və dövlətçilik ənənələrinə sadiq bir gənc kimi yetişmək istərdik. “Kitabi-Dədə Qorqud” dastanlarında adıçəkilən boylarda ana haqqı, Tanrı haqqı, Vətən sevgisi, yurd eşqi, tarixi ənənələr, toy adətləri bizi, əslində, bir vətəndaş kimi formalaşdırır, onların nümunəvi həyatlarından örnək götürmək öyrədirdi bizlərə. Təsəvvürlərimizdə canlandırdığımız nağıl qəhrəmanları, sərkərdələr bizim gələcək ideallarımıza çevrilərdi. Beləcə, yuxuya da tez gedərdik. Gecə yatmağa elə həvəslə gedərdik ki… Müsbət nağıl qəhrəmanlarımızın gələcəkdə bizim formalaşmağımızda, iradə sahibi olmağımızda, mərd, sözübütöv, əqidəli, vətənpərvər kimi böyüməyimizdə, bir sözlə, layiqli vətəndaş kimi yetişməyimizdə oynadığı rol əvəzsizdir. Bu gün milli təfəkkürümüzü, milli dəyərlərimizi təbliğ edən nağıllara borcluyuq. Böyüdüyümüz nağıllar bizim milli dəyərlərimiz, ənənələrimiz, tariximizdir.



Bu gün isə sinəsi söz boxçalı nənələrimizi yeni dövrün “nağıldanışanları” əvəz edib: mavi ekranlı kompüterlər, telefonlar!.. Təsəvvürlərə fərqli obrazlar hakim olub. Düşüncələr dəyişib, qəhrəmanlar başqalaşıb. İndi nənədən nağıl istəyən uşaq da yoxdur. Ahəstə laylaların, şipşirin nağılların yerini gün uzunu bəzi televiziya kanallarının efirlərini dolduran mənasız hay-küy dolu verilişlər, smartfon telefonların lazımsız paylaşımları və videogörüntüləri əvəz edib.

Biz böyüklər, bəlkə də, üzdəniraq televiziya verilişlərinin zərərli təsirlərindən qoruna biləcək mənəviyyata və psixologiyaya malikik. Amma uşaqlar hələlik bunu dərk edəcək səviyyədə deyillər. Düzdür, reallıq belədir ki, bu gün uşaqları televizorlardan tam uzaq tutmaq mümkün deyil. Buna baxmayaraq, valideynlər, uşaqlarını bəzi televiziya kanallarının çoxsaylı verilişlərinin zərərli təsirindən qorumalıdırlar. Çünki diqqət yetirsək, görərik, bizim televiziyalar xaricdə istehsal olunmuş cizgi filmlərinə daha çox üstünlük verirlər. Onlar isə, bütünlükdə, milli dəyərlərimizə yad olan həyat tərzini təbliğ edir. Beləliklə, cəmiyyətdə tərsmütənasiblik yaranır, harmoniya pozulur. Elə bu səbəbdəndir ki, indiki uşaqlar milli nağıl qəhrəmanlarından daha çox “lol bəbək”ləri, “barbi”ləri, “benten”ləri, “frozen”ləri və kim bilir, daha hansı fantastik qəhrəmanları öz təsəvvürlərində canlandırır və ideallaşdırır, onlara bənzəmək istəyirlər.

Axı bizim xalq nağıllarımızın öz milli personajları vardır: Məlikməmməd, Ağ atlı oğlan və bu cür xeyir-şər döyüşündə haqqın, ədalətin tərəfini tutan qəhrəmanlar... Bu qəhrəmanlar nağıl boyu müxtəlif sınaqlardan keçir, çətinliklərə düşür və hər zaman öz qətiyyətləri, qəhrəmanlıqları, ağılları sayəsində uğur qazanırlar. Məlikməmməd divi öldürür, əsir qızı xilas edir, Simurq quşu ilə qaranlıq dünyadan işıqlı dünyaya çıxır. Ağ atlı oğlan haqqı tapdalanan insanların köməyinə yetişir, zalımları cəzalandırır. Digər nağıl qəhrəmanlarımız da elə bu cür müsbət xarakter aşılayırlar. Yəni uşaq o nağılları oxuyub və ya eşidib düşündükcə, istər-istəməz özü üçün müsbət nəticələr çıxarır. Təəssüf ki, bir zamanlar həvəslə dinlədiyimiz nağıllar və nağıl qəhrəmanları bu gün arxa planda qalıb. Bunun əsas səbəbkarı isə nağıl danışmaq vərdişini itirən, öz rahatlığı üçün övladlarını saatlarla televizor, kompüter qarşısında əyləşdirən valideynlərdir. Onların sayəsində bu gün o nağıllar da bəzilərinin “dəbdən düşmüş” hesab etdikləri qədim mahnılar kimi unudulmağa üz tutub, indi uşaqlar yeni əyləncələr, yeni “nağıllara” ovunurlar.

Bu qəhrəmanların mənşəyi bizdən deyil, uzaq, yad məmləkətlərdən gəlir. İndiki uşaqlar dünyaya göz açan kimi onları cizgi filmlərində, “YouTube” kanallarında gördükləri üçün elə onlara da bənzəmək istəyirlər. Qızların ən çox sevdikləri “Barbi” kuklalar, oğlanların meyil etdikləri isə “hörümçək adam”dır.

“Barbi” kukla ilə böyümüş qız məktəb yaşına çatır və onun üçün lazım olan bütün məktəb ləvazimatlarını alırlar. Ancaq qız bir mərəkə qoparır ki, gəl görəsən. Nə var, nə var, çantasının üstündə “Barbi” şəkli yoxdur. Gərək bu qızın hər şeyi “barbi”li olsun: paltarı da, çantası da, dəftəri də, geyimi də. Buradan bir sual meydana çıxır: Kimdir müqəssir? Cavabı sizə də bəllidir: valideynlər. Eyni mənzərəni hörümçək adam misalında da görə bilərik. Bir sözlə, uşaqlar öz qəhrəmanlarını həyatlarının bütün məqamlarında gözlərinin qarşısında görmək istəyirlər, çünki uşaqlıqdan ona bağlanıblar.

Kiçikyaşlı uşaqlar nağılları əvəz edən cizgi filmlərinin fantastik “qəhrəmanlar”ına bağlandıqca onlar kimi güclü olmaq istəyirlər, bir sözlə, hər kəsdən fərqlənmək və qeyri-adi olmaq həvəsinə düşürlər. Beləcə, uşaqlarımız “Barbi”ləşir, “hörümçək adam”laşır, sonra da sizdən, bizdən uzaq düşüb, ənənələrimizə, dəyərlərimizə yad münasibət göstərirlər. Artıq ərköyünlük onların əməllərində görünür. Beləcə, hər istəyini yerinə yetirmək məcburiyyətində qalırsan. Uşaq öz arzularına o qədər bağlanır ki, fərqli münasibət göstərəndə qəzəbini gizlətmir, etiraz edir, istəyini əldə etmək üçün cürbəcür yollar axtarır. Gördüyünüz kimi, bu qəhrəmanlar, əslində, uşaqları zaman-zaman normal həyatdan, real duyğu və düşüncədən uzaqlaşdırır. Uşaqlar artıq sizin kimi olmaq istəmirlər, siz onlar üçün artıq kifayət qədər güclü deyilsiniz. Deməli, bu cür qəhrəmanlar valideynləri uşaqların gözündə zəif, gücsüz göstərir. Bu da formalaşmaq mərhələsində olan uşaqlarda eqoistliyin başqa bir tərəfi kimi təzahür edir. Acınacaqlı odur ki, bəzi valideynlər hələ övladlarının əcnəbi cizgi filmlərini saatlarla izləməsindən və oradakı qəhrəmanlar



kimi danışmasından, hərəkətlər etməsindən fərəhlənir, zövq alırlar.

Nağıllarla böyüyən nəslin üstün cəhəti ondan ibarətdir ki, erkən yaşlarından öz valideynlərindən nümunə götürər, ata-analarını hər kəsdən daha güclü, daha üstün bilərdi. Lakin dövrümüzün müasirlik azarının nəticəsi olaraq övladlarımızın bənzəmək istədikləri vizual qəhrəmanlar uşaqların duyğularında hər şeyi dəyişib, valideynə münasibətə də mənfi təsir göstərib. Vaxtilə atalarını hamıdan güclü bilən uşaqlar bu gün kimin güclü olduğunu heç soruşmurlar da. Çünki əmindirlər ki, “hörümçək adam” onların atasından çox-çox güclüdür. Beləcə, uşağın gözündə bir ata obrazı zəifləyir. Çünki onun atası “hörümçək adam” kimi bir göz qırpımında evin damına çıxa bilmir. İndi uşaqlar valideynlərindən çox sevdikləri “qəhrəmanlara” bənzəmək istəyirlər.

Əziz valideynlər, övladımızı bu cür təsirlərdən qorumağa çalışaq ki, bizə hörmət etməyi bacarsınlar, gözlərində güclü obraz kimi qala bilək. Onlara milli dəyərlərimizi təbliğ edən nağıllar danışın ki, sizin dilinizdən hər gün nağıl eşitməyə vərdiş etsinlər. Milli nağıl qəhrəmanlarımızı – Məlikməmmədi, Cırtdanı, Ağ atlı oğlanı, Göyçək Fatmanı, pinəçi Muradı sevsinlər. Onlara adət-ənənələrimizi, milli dəyərlərimizi təbliğ edək. Körpələrimizə torpaq, millət sevgisini, Vətən eşqini aşılayaq. Övladlarımızı müasirlərimiz olan milli qəhrəmanlarımızı, Vətən uğrunda canından keçən Mübarizləri, Poladları, Babəkləri, Şükürləri tanımaqdan, onların əfsanələşən ömürləri haqqında məlumat verib onlara bənzəmək kimi müqəddəs ideallardan məhrum etməyək. Bu bizim valideynlik, vətəndaşlıq vəzifəmizdir. Axı övladlarımızı sabahın layiqli vətənpərvər gənci, əsgəri və qəhrəmanı kimi yetişdirə bilməliyik.

***P.S.*** *Hədəf cizgi filmlərini pisləmək deyil. Əslə. Tərbiyəvi əhəmiyyətli cizgi filmləri də var. Valideynlər cizgi filmləri izləyən uşağa nəzarəti gücləndirməli, uşaqları əhəmiyyətsiz, qorxulu cizgi filmlərinə baxmağa qoymamalı, unudulan xalq nağıllarımızı sandıqcadan çıxartmalıdır. Nağıl danışmağa həsrət qalan nənələrimizin intizarına son qoymalı, övladlarımıza nənələrimizdən nağıl istəməyi təlqin etməli, dinləyib nəticə çıxarmağı aşılamalıyıq. Belə etsək, uşaqların düzgün, milli mentalitetə uyğun tərbiyə olunmasına, gələcəyimizin daha parlaq olmasına töhfə verə bilərik. Hamımız bu amalla yaşamırıqmı?!*

**Türkan HÜSEYNLİ**

***İtmişdir***

Valiyev Nicat Vahid oğlunun adına olan 0200885002 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 207